Azərbaycan Dövlət Gerbi:

Milli kimliyimizin qürur simvolu

Hər bir dövlətin mövcudluğu onun tarixi-mədəni zənginliyini və çoxəsrlik dövlətçilik ənənələrini əks etdirən rəmzləri ilə sıx bağlıdır. Dövlət rəmzləri - bayraq, gerb, himn - yalnız simvol deyil, həm də bir millətin kimliyini, ideologiyasını və mədəni irsini dünyaya nümayiş etdirən güclü məfhumdur. Bu rəmzlər əsrlər boyu tarixin çətin sınaqlarından keçərək formalaşıb və dövlətçilik şərəfini özündə yaşadır. Onların öyrənilməsi əslində dövlətimizin tarixi, milli dəyərlərimiz və ideologiyamız barədə daha geniş təsəvvür əldə etməyə imkan verir. Bu rəmzlər, bir sözlə, Azərbaycanın kimliyinin möhtəşəm güzgüsüdür.

"Xarici sözlər lüğəti"ndə gerb polyakca "herb", almanca "vərəsəlik" mənasında işlənir. Gerb sözü bir dövlətin, şəhərin, nəslin fərqləndirici rəmzi nişanı kimi, əsas etibarı isə bayraqda, möhürdə, təsvir edilir. Ulu öndər Heydər Əliyev dövlət gerbini mühüm atributlardan biri hesab edirdi: "Azərbaycan gerbini təbliğ etmək lazımdır. Azərbaycanın gerbi, bayrağı ilə bərabər, bizim dövlət müstəqilliyimizi təmsil edən atributdur". Azərbaycanın müstəqillik simvolu olan Dövlət Gerbi - xalqımızın tarixinin, milli irsinin və dövlətçilik ənənələrinin parlaq təcəssümüdür. 1993-cü il yanvarın 19-da Azərbaycan Respublikasının Dövlət Gerbi rəsmi olaraq təsdiq edildi.

Cənubi Qafqazın mürəkkəb geosiyasi mənzərəsində Azərbaycanın lider dövlətə çevrilməsi, müasir dövlətçiliyimizin möhkəmlənməsi və müstəqilliyimizin əbədi olması güclü dövlət profilinin təcəssümü kimi rəmzlərin tərtibi və seçilməsi məhz ulu öndər Heydər Əliyevin uzaqgörən siyasi kursunun nəticəsidir. Heydər Əliyev - azərbaycançılıq ideologiyasının banisi, milli müstəqilliyimizin simvolu və Azərbaycanın inkişaf yolunun memarıdır. Bu gün heç kimdə şübhə doğurmur ki, Cənubi Qafqazda müstəqilliyimizin qarantı olan ən güclü amil Heydər Əliyev siyasətidir. Onun strateji baxışları və praqmatik liderliyi sayəsində Azərbaycan dünya arenasında öz mövqeyini möhkəmləndirib, güclü, sabit və müstəqil dövlət qurub. Tarixin sübut etdiyi bir həqiqət var: Azərbaycan üçün ən doğru yol Heydər Əliyev yolunun davamıdır. Bu yol - xalqımızın milli maraqlarını qoruyan, ölkəmizi sabitliyə və tərəqqiyə aparan, müstəqilliyimizin sarsılmazlığını təmin edən bir yoldur. Azərbaycanın hər bir uğuru bu böyük ideologiyanın əbədiyaşarlığını və əyilməz gücünün təzahürüdür.

Məlumdur ki, Sovet hakimiyyətinin ilk dövrlərində bolşeviklər kommunist ideologiyasına bağlı olmayan hər şeyin üzərindən xətt çəkirdilər. İnanclar, ənənələr, hətta milli musiqi belə keçmişin qalığı hesab olunurdu. Əfsuslar olsun ki, bütün bu mənfi düşüncələr Azərbaycana da şamil olundu. Məhz bütün ideloji fikirlərin boğulduğu bir anda bu bağların qopmaması üçün bütün səylər göstərilirdi. Lakin xalqımız acı nəticələrlə üzləşdi. Repressiyalar və etnik təmizləmə siyasəti həyata keçirildi, böyük bir xalqın ümid çırağını söndürmək istədilər. Nəhayət, XX əsrin əvvəlində bu kiçik alov böyük bir məşələ çevrildi.

Dövlət Gerbinin təsdiqi prosesində bir çox tarixi mərhələlər yaşanmışdır. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi üçrəngli bayrağın bərpası ilə yanaşı, Dövlət Gerbinin və Himninin qəbul edilməsi üçün müsabiqə elan olunmasını qərara aldı. Daha sonra 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti üçrəngli bayrağın rəsmi dövlət bayrağı kimi qəbul edilməsi ilə yanaşı, Dövlət Gerbinin yaradılması üçün də xüsusi qərar qəbul etdi. Bu qərar çərçivəsində müsabiqə Milli Məclisə həvalə edildi. Lakin 1992-ci ildə müsabiqənin nəticələri ləğv olundu. Gerbin hazırlanması işinə yenidən başlanıldı. Sonrakı mərhələdə 1920-ci ildə gürcü rəssam Knyaz Şerşavidze tərəfindən hazırlanan simvol Milli Məclisin müzakirəsinə çıxarıldı. Lakin bu peşəkar rəmzə bənzəmədiyi üçün Milli Məclis tərəfindən qəbul olunmadı. Bu simvolun üzərində işlənilməsi ilə bağlı tapşırıq verildi və gerbin heraldika sənətinə uyğun hazırlanması tapşırıldı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə isə bu möhtəşəm simvolun yaradılması üçün iki dəfə müsabiqə elan edilmişdi. 1919-cu ilin mart ayında keçirilən müsabiqə nəticəsiz qaldı. 1920-ci ilin yanvarında isə gerb, möhür, milli himn və hərbi ordenlər üçün yeni müsabiqə elan olundu. Təəssüf ki, Azərbaycanın müstəqilliyinə son qoyan sovet işğalı bu layihələrin tamamlanmasına mane oldu.

Dövlətimizin rəmzləri - xalqımızın tarixi, milli kimliyi və müstəqilliyinin əbədi şahidləridir. Üçrəngli bayrağımızın ilk dəfə dalğalanmasından bu günə qədər onun üzərindəki hər bir rəng və simvol azadlıq, milli birlik və çağdaşlığın mesajını verir. Dövlət Gerbimiz də bu rəmzlərin arasında xüsusi yer tutur. Tarix boyunca müxtəlif layihələr təklif olunmuş, müzakirələr aparılmış nəhayət xalqımızın ruhunu və dövlətçiliyini ən gözəl şəkildə əks etdirən gerb təsdiq edilmişdir. Bu gün Gerbimiz - qəhrəmanlıq, sülhsevərlik və tərəqqinin rəmzi kimi Azərbaycanımızın suverenliyini dünyaya nümayiş etdirir. Dövlət Gerbindəki hər bir simvol dərin məna daşıyır. Qalxan - qəhrəmanlıq və müdafiə simvoludur. Üçrəngli mavi, qırmızı və yaşıl çalarlar bayrağımızdakı türklük, müasirlik və islam prinsiplərini əks etdirir. Səkkizguşəli ulduz - günəşin və əbədi həyatın rəmzi kimi ağ rəng əmin-amanlıq və barış mesajını çatdırır. Ulduzun mərkəzindəki alov təsviri isə "Odlar Yurdu" Azərbaycanı və milli dəyərləri təcəssüm etdirir. Gerbin ətrafını bəzəyən palıd yarpaqları möhkəmliyi, sünbül isə bərəkəti və bolluğu simvolizə edir.

Qüdrətli Azərbaycan dövləti bütün simvol və atributları ilə vahid bir bütövlükdür. Məhz bu bütünlüyün güc yeri xalq və iqtidarın sarsılmaz birliyidir. Qazandığımız uğurlar daim bu birliyin möhkəmliyini daha da gücləndirmişdir. Lider dövlətə çevrilən Azərbaycanın qüvvəsinin sirri məhz budur.

Nurlan ABDALOV,
"Respublika".